**Ölkəmizdə sənayeləşmə prosesinin ardıcıl davam etdirilməsi, qeyri-neft sənayesinin inkişafı dövlətin iqtisadi siyasətində əsas yer tutur. Pandemiya səbəbindən dünyanın iqtisadi-maliyyə problemləri ilə üzləşdiyi bir vaxtda Azərbaycanda iqtisadiyyat sahəsində böyük işlərin görülməsi, o cümlədən sənayenin inkişaf etdirilməsi fərəh doğurur.**

# Azərbaycanın iqtisadi yüksəlişi dönməz xarakter alıb

Prezident İlham Əliyevin sentyabrın 3-də Sumqayıta səfəri də bunun bariz ifadəsidir. Dövlət başçısı həmin gün "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin, "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının, inzibati-sosial obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirak edib. Xatırladaq ki, bu ilin əvvəlində də cənab İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında (SKSP-də) iki zavodun təməlini qoymuş, vərəqə şüşə istehsalı müəssisəsinin açılışını etmişdir. Ümumiyyətlə, qeyri-neft sektoru respublikamızın bütün bölgələrində inkişaf etdirilir.

Qeyd edək ki, Kimya Sənaye Parkının məhz, Sumqayıtda yaradılması çox uğurlu seçim olub. Buraya əvvəlki səfərlərinin birində cənab İlham Əliyev SKSP-də böyük nailiyyətlər qazanılacağına inamını ifadə edib: "Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir".

Artıq ümumi investisiyalarının həcmi 3,2 milyard ABŞ dolları olan 24 sahibkarlıq subyektinə rezidentlik statusunun verildiyi və onlardan 17-sinin fəaliyyətdə olduğu Sumqayıt Kimya Sənaye Parkının növbəti müəssisəsi – "Azmonbat" da ölkənin iqtisadi inkişafına mühüm təsir göstərəcək. Burada istifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası aparılacaq, propilen və yüksək sıxlıqlı polietilen, qurğuşun külçə, qurğuşunlu aktiv kütlə və ammonium sulfat məhlulu əldə olunacaq. Yüz nəfərin daimi işlə təmin olunduğu müəssisədə buraxılan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, xarici ölkələrə də ixrac ediləcək. Yeri gəlmişkən, hazırda Sumqayıt Kimya Sənaye Parkı 5500-dək insanın daimi iş yeridir. Parkda modern texnologiyalar tətbiq olunur, istehsalı və ixrac istiqamətində müsbət dinamika davam edir. Biz sumqayıtlılar şəhərimizdə ekologiyanı zərrəcə korlamayan, ərazisi yaşıllıqlarla əhatə olunan müasir zavodların inşasından hədsiz dərəcədə məmnunuq.

Prezident İlham Əliyev səfər çərçivəsində "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışında da iştirak edib. Bu, sənayenin enerji dayanıqlığı baxımından zəruri addımdır. Enerjisistemin Reabilitasiya Proqramı üzrə həyata keçirilən işlər arasında xüsusi önəm kəsb edir. Açılış mərasimində vurğulanıb ki, son illərdə Xəzər dənizində suyun səviyyəsinin 1,7 metrə qədər aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasının soyutma suyunun götürülməsində ciddi problem yaradır, avadanlıqların sıradan çıxmasına səbəb olurdu. Amma görülən tədbirlərin sayəsində su qıtlığı hiss edilməsə də, yeni bir stansiyaya da ehtiyac var idi ki, etibarlı iş rejiminə nail olunsun. Odur ki, dənizin 5 metr dərinliyindən soyuq suyun götürülməsinə imkan verən 750 metr uzunluğunda estakada, həmçinin yeni su nasos stansiyası tikilib. Bununla da stansiyanın soyuducu su təchizatının etibarlılığı təmin edilib və ən əsası stansiyanın fəaliyyətinin dayanmasının qarşısı alınıb. Elektrik stansiyasını xüsusi üsulla soyuq su ilə təmin edən yeni nasosxana istilik energetikası sahəsində ilk təcrübə sayılır.



Bəli, ötən hər gün, hər ay Azərbaycan sənayesinin həyatında bu və digər yeniliklərlə əlamətdar olur. Məsələn, bir ay əvvəl SKSP-nin rezidenti "SOCAR Karbamid Zavodu" tam gücü ilə fəaliyyətə başlayıb. Parkın digər rezidenti "Azerfloat" QSC isə bu günlərdə ilk dəfə olaraq İsrail və İspaniyaya ağ şəffaf şüşə vərəqələrin ixracına nail olub. Artıq sifarişçilərin sayı 9-dur. "Tabaterra" tütün məmulatları fabriki sırf ixracyönümlü fəaliyyət göstərməyi hədəfləyib. Sumqayıt markalı çeşidli məhsullara Azərbaycandan xeyli uzaq ölkələrdə, həmçinin beynəlxalq sənaye sərgilərində rast gəlmək olar.

Bizim kollektiv də respublikada və onun hüdudlarından kənarda həyata keçirilən mühüm layihələrdə fəallığı ilə seçilir. Sumqayıtdakı EP-300 mürəkkəb qurğusunun modernizasiya və rekonstruksiya işlərində sifarişləri uğurla yerinə yetirmişik. SOCAR-la yanaşı, AzFen və AzTen şirkətləri ilə əməkdaşlıq edirik. "AzVOOL"-un Mineral daş yunu zavodunda işlərimiz davam edir.Mütəxəssislərimizin yüksək peşəkarlıq keyfiyyətləri beynəlxalq qurumlar tərəfindən etiraf olunur və dəyərləndirilir. İndiyədək şirkətimiz Avropanın dörd ali mükafatına sahib olub. Fransa, İngiltərə, İspaniya və Avstriyada keçirilmiş beynəlxalq sənaye-quruculuq konfranslarında iştirak etmiş və Azərbaycanın uğurlarını təbliğ etmişik. Avropa Beynəlxalq Sahibkarlar konfederasiyasının üzvü kimi, mənə sənaye quruculuğu sahəsində ən yüksək mükafat – Sokrat mükafatı verilib. Azərbaycanda isə "Əmək" ordeni və "Tərəqqi" medalına layiq görülmüşəm.

Azərbaycan iqtisadiyyatının inkişafı sürətlə davam edir. Sevinirik ki, bu uğura biz də töhfələr veririk.

***Şakir HƏSƏNOV,***
***"Aztermoizol" ASC-nin sədri***

Xalq qəzeti.- 2021.- 10 sentyabr.- S.4.